https://doi.org/10.59849/2410-5600.2026.1.84
UOT: 82-3.512.162

**Vəfa Şərifova**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı şəhəri, İstiqlaliyyət küç., 26*
*e-mail: vefa.gazi@gmail.com*

# MİR MÖHSÜN NƏVVAB YARADICILIĞINA BİR NƏZƏR

**Xülasə**

Pedaqoq, şair, musiqişünas, rəssam, xəttat olan görkəmli şəxsiyyət Mir Möhsün Nəvvab istedadlar yurdu olan qədim Şuşada dünyaya göz açmışdır. Azərbaycan tarixində ədibin milli ənənələrə sıx bağlı olan yaradıcılığı olduqca qiymətli mövqeyə sahibdir. Onun qiymətli yaradıcılığı Azərbaycan təsviri sənət tarixinin parlaq səhifələrindən birini təşkil edir. Mir Möhsün Nəvvabın yaradıcılığının çoxcəhətli olmasında onun ərəb, fars, rus, türk dillərini mükəmməl bilməsinin çox böyük rolu olmuşdur. Ədibin ədəbiyyat, musiqi, rəssamlıq, nəqqaşlıq kimi bir çox sahələrdə uğur qazanması onun zəngin dünyagörüşünə sahib olmasından irəli gəlirdi. Mir Möhsün Nəvvab şair, rəssam, tarixçi, musiqişünas, astronom, kimyaçı, pedaqoq kimi bir çox sahələrdə fəaliyyət göstərmişdir.

***Açar sözlər:*** *Azərbaycan, Mir Möhsün Nəvvab, ədəbiyyat, mədəniyyət, musiqi, Qarabağ, Şuşa*

## Giriş

*Mir Möhsün Nəvvab müxtəlif elmlərə bələd olan və açıqfikirli bir ziyalı kimi adını Azərbaycan ədəbiyyatı tarixinə əbədi yazdırmağa nail olmuşdur. Mir Möhsün Nəvvab "Məclisi-üns" və özünün təşəbbüsü ilə təşkil edilən "Məclisi-fəramuşan" ("Unudulmuşların məclisi") adlı məclislərdə şeirlərini oxuyar, musiqiyə qulaq asarmış. Mir Möhsün Nəvvabın Azərbaycan ədəbiyyatına bir ən əvəzsiz xidməti də onun 100-dən artıq Qarabağ şairlərinin əsərlərini toplayaraq sanballı bir kitab-təzkirə hazırlaması olmuşdur. Bu təzkirədə 100-dən artıq Qarabağdan olan şairin həyat və yaradıcılığı haqqında məlumatlar vardır. Mir Möhsün Nəvvab "1905-1906-cı illərdə erməni-müsəlman davası" adlı əsərində ermənilərin iç üzünü açır, onların necə hiyləgər millət olduğunu göstərir. Şuşada azərbaycanlıları necə vəhşiliklə öldürdüklərini, yandırdıqlarını faktlarla yazmışdır. Mir Möhsün Nəvvabın "Nəsihətnamə" əsərində çox dəyərli və dərs götürüləsi nəsihətlər toplanmışdır.*

Mir Möhsün Nəvvab Azərbaycanda elmin inkişafı üçün çox böyük xidmətlər göstərmişdir. Mir Möhsün Nəvvabın zəngin poetik irsi onun Azərbaycan və fars dillərində tərtib etdiyi divanlarında və təzkirəsində toplanmışdır. Mir Möhsün Nəvvab klassik şeirin qəzəl, mürəbbe, müxəmməs, müsəddəs, müəşşər, çarpарə kimi janrlarından istifadə etmişdir.

Alimin Qarabağ şairlərinin həyatı və yaradıcılığı toplanan "Təzkireyi-Nəvvab" əsəri Azərbaycan ədəbiyyatı üçün olduqca böyük əhəmiyyət kəsb edir. Mir Möhsün Nəvvabın 1913-cü ildə Bakıda kitab şəklində nəşr olunmuş təzkirəsində toplanan əsərlərin ədəbi təhlili Azərbaycanın Qarabağ bölgəsində yaranmış ədəbiyyatımızın inkişaf yolu haqqında geniş bir məlumat bazasıdır. Mir Möhsün Nəvvabın təzkirəsi bütün zamanlarda yüksək səviyyədə dəyərləndirilmişdir.

Alim Azərbaycan ədəbiyyatında 30-dan çox əsərin müəllifi kimi tanınır. Ədibin "Kəşkül həqiqə", "Bəhrül hüzən", "Kənzül-mühən", "Vüzuh əl-ərqam", "Təzkirə", "Məzamir", "Şəmsül-hidayə", "Şərhi-üstürlab", "500 nəsihət" ("Nəsihətnamə"), "Müseyibnamə" kimi qiymətli elmi,

tarixi, bədii əsərləri onun zəngin bir irsə sahib olmasının sübutudur. Mir Möhsün Nəvvabın yaradıcılığının çoxşaxəli olmasında onun riyaziyyat, kimya, astronomiyaya aid biliklərinin çox olmasının xüsusi rolu olmuşdur. Öz evində iki teleskop quraşdıraraq, kiçik rəsədxana və kimya laboratoriyası yaratmış Mir Möhsün Nəvvab 1899-cu ildə dərslik kimi qələmə aldığı "Kifayətül-ətfal" kitabına göy cisimlərinin yerləşməsi və günəş tutulmalarına dair tərtib etdiyi cədvəlləri də daxil etmişdir.

Ədibin çoxşaxəli yaradıcılığında 1905-ci ildə yazdığı "Təvarixi-rəzm və şurişi tayafeyi-ərməniyeyi-Qafqaz ba firqeyi müsəlmanan", yəni "Qafqaz erməni tayfası ilə müsəlmanların vuruş və iğtişaş tarixləri" adlı əsərinin xüsusi yeri vardır. Əsərin Dağlıq Qarabağ probleminin tarixi köklərinin öyrənilməsində çox böyük rolu olmuşdur. Mir Möhsün Nəvvabın erməni-müsəlman davası əsasında yazdığı əsəri oxuyan zaman ermənilərin Bakıda, İrəvanda, Navçıvanda, Təbrizdə, Şuşada, Tiflisdə, Gəncədə və başqa Azərbaycan şəhərlərində, kəndlərində azərbaycanlılara qarşı törətdikləri vəhşiliklərin şahidi oluruq. Ədib ermənilərin zülmünü təsvir edən hadisələri əsaslı faktlarla qələmə almışdır. Tarixi faktlara əsaslanan əsərin təhlili genosidin məhz ermənilər tərəfindən həyata keçirildiyinin bir daha sübutudur.

Mir Möhsün Nəvvabın monumental və dekorativ sənət qrafikası sahəsində yaratdığı süjetli kompozisiyalara Şuşadakı Gövhər ağa məscidinin minarələrində, vaxtilə yaşadığı evin və dərs dediyi məktəbin binasında rast gəlinir. Mir Möhsün Nəvvabın "Kənzül-mühən", "Bəhrül-hüzən", "Kəşfül-həqiqeyi-məsnəvi", "Şuşada aşura mərasimi", "Teymurləngin portreti", "Güllər", "Quşlar" əsərləri onun rəssam kimi istedadının nəticəsidir. Ədib, şair, xəttat Mir Möhsün Nəvvabın AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda qorunan ünvanlı əlyazmalarındakı miniatürlər özünəməxsusluğu ilə seçilir.

"Mir Möhsün Nəvvab Azərbaycan musiqi mədəniyyətinin inkişafında mühüm xidmətləri olan görkəmli sənətkarlardandır. Onun muğam sənətinə dair fikirləri milli musiqi tariximizin öyrənilməsində əhəmiyyətli mənbə hesab olunur" [1, s.19].

Alimin musiqi elmi və ifaçılıq sahəsində fəaliyyəti olduqca çoxşaxəlidir. Azərbaycanın məşhur musiqişünası Mir Möhsün Nəvvab Şuşa ədəbi-mədəni mühitinin zənginləşməsində bir musiqiçi, şair, rəssam, xəttat, münəccim, kimyaçı və riyaziyyatçı kimi çox böyük xidmətlər göstərmişdir. Görkəmli musiqişünas alim Mir Möhsün Nəvvabın musiqiyə aid olan elmi irsi olduqca zəngindir. Milli musiqişünaslığımızda mənbəşünaslığın əsasını qoymuş və Azərbaycanın musiqi elmini öz əsərləri ilə zənginləşdirmişdir. Musiqişünas alim Mir Möhsün Nəvvab rəhbərlik etdiyi "Məclisi-Fəramuşan" adlı musiqi məclisində şairləri, xanəndələri ətrafına toplayar, saatlarla şeir deyilib, muğam dəsgahları oxunardı. Məclis üzvləri olan Xan Qarabaği, Abış bəy, Mirzə Əli Aşiq, Məşədi Əyyub Baki, Abdulla bəy Asi və başqaları ilə birlikdə təbiətdən zövq alaraq yazdıqları şeirləri müzakirə edirdilər. Mir Möhsün Nəvvab ilk dəfə olaraq musiqiyə dəsgah terminini gətirərək, o dövrdə Qarabağda məlum olan altı dəsgahın −Rast, Mahur, Şahnaz, Rahavi, yaxud Rahab, Çahargah və Nəva dəsgahlarının adını çəkərək, Qarabağ musiqiçiləri tərəfindən ifa olunan 82 mahnı və muğamın da adlarını qeyd edərək, onların tarixin səhifələrindən silinməsinə icazə verməmişdir. Mir Möhsün Nəvvabın muğamları, onların yaranma tarixini araşdıran tədqiqatçılar aşkara çıxarmışdırlar ki, ədib hər muğamı öz xarakterinə görə təbiət hadisələrinə, insan duyğularına bənzətmişdir. Ədibin musiqini çox gözəl duyub anlamaq qabiliyyəti nəticəsində musiqiyə aid olan "Vüzuh əl-ərqam" risaləsi Azərbaycan musiqisi barədə dolğun məlumat verə bilməsi baxımından olduqca qiymətlidir. Risalədə ayrı-ayrı muğamların, bəzi dəsgahların mənşəyi və onların adlarının kökü, şeir mətnləri ilə əlaqəliliyi, ifaçı ilə dinləyicinin qarşılıqlı münasibətləri, akustika baxımından optimal yerləşməsi problemləri haqqında geniş məlumat vermişdir.

Görkəmli alim Mətanət Vahid "Mir Möhsün Nəvvabın Azərbaycan musiqişünaslığında rolu" adlı məqaləsində Mir Möhsün Nəvvabın Azərbaycan musiqişünaslığındakı mövqeyini geniş şəkildə analiz etmişdir. "Özünəqədərki ənənələri davam etdirməklə yanaşı, "Vüzuh əl-ərqam" bu və digər baxımdan orta əsr risalələrindən fərqlənir. Nəvvab burada ilk dəfə olaraq "dəsgah" terminindən istifadə edir və o vaxt Qarabağda məlum olan altı dəsgahın ("Rast", "Mahur", "Şahnaz", "Rəhavi" (yaxud "Rahab"), "Çahargah" və "Nəva") adını çəkir. Nəvvaba görə, ifa olunan dəsgahın tərkibi bir

çox hallarda ifaçının zövq və qabiliyyətindən asılı olur. O, əsərdə həmçinin Qarabağ musiqiçiləri tərəfindən ifa olunan 82 mahnı və muğam adı çəkir. Bir neçə muğamın mənşəyini və adının etimologiyasını araşdıran Mir Möhsün Nəvvab "Rast" muğamını bahar küləyinin hərəkəti; "Rəhavi"ni Rəhaviyyə qəsəbəsinin adı, həmçinin yağış damlalarının səsi; dörd nəğmə və guşə ilə təkmilləşmiş "Çahargah"ı ildırımın çaxması; "Dügahı" fəvvarədən axan suyun səsi; "Humayu"nu quşların qanad çalması; "Nəva"nı aşiqlərin ürəkyaxan naləsi; "Mahur"u suyun şırıltısı; "Şahnaz"ı bülbüllərin sədası; "Üşşaq"ı quşların havada süzməsi; "Üzzal"ı meteoritlərin hərəkəti ilə əlaqələndirir." [7, s.18].

İradə Əliyeva "Böyük söz sərrafı Mir Möhsün Nəvvab: Şəxsiyyətlər" məqaləsində ədibin muğam haqqındakı fəaliyyətini tədqiq etmişdir. "Mir Möhsün Nəvvab bir neçə muğamın mənşəyini və onların adının etimologiyasını da araşdırmışdır. Muğamların adlarını onların yaranmasında xüsusi rol oynamış şəxslərlə və yer adları ilə əlaqələndirmişdir. "Rast" muğamını bahar mehi, "Rahavi"ni yağış damlaları, "Çahargah"ı ildırım çaxması, "Dügah"ı fontan vuran bulaqlarla, "Humayun"u quşların uçuşu, "Nəva"nı bədbəxt sevgililərin ah-naləsi, "Mahur"u suların şırıltısı, "Şahnaz"ı bülbüllərin cəh-cəhi, "Üşşaq"ı quşların havada süzməsi, "Üzzal"ı meteoritlərin hərəkəti ilə əlaqələndirmişdir. Beləliklə, maraqlı bir bənzətmə yaratmışdır. 1913-cü ildə Mir Möhsün Nəvvabın yazdığı bu kitab ona təkcə Azərbaycanda deyil, vətənimizin hüdudlarından kənarda da şöhrət qazandırmışdır" [2, s.15].

Məmməd Mirzəliyev "Şuşada doğuldu və ömrü boyu bu şəhəri tərk etmədi: Mir Möhsün Nəvvabın həyat və yaradıcılığı…" məqaləsində Mir Möhsün Nəvvabın məşhur musiqi traktatını geniş şəkildə tədqiq etmişdir. "Mir Möhsün Nəvvabın məşhur musiqi traktatı "Vüzuh əl-ərqam" ilk dəfə 1913-cü ildə Bakıda nəşr olunmuşdur (Onun musiqiyə həsr etdiyi "Kəşfül-həqiqəti-məsnəvi" əsəri də məlumdur). Həmin risaləsində Mir Möhsün ayrı-ayrı muğamların, bəzi dəsgahların mənşəyi və onların adlarının kökü haqqında məsələləri araşdırır, muğamların şeir mətnləri ilə əlaqəliliyi, ifaçı ilə dinləyicinin qarşılıqlı münasibətləri, akustika baxımından onların optimal yerləşməsi problemlərinə toxunur. Nəvvab ilk dəfə olaraq dəsgah terminindən istifadə edir, o vaxt Qarabağda məlum olan altı dəsgahın adını çəkir: Rast, Mahur, Şahnaz, Rahavi, yaxud Rahab, Çahargah və Nəva. Nəvvabın sözlərinə əsasən, ifa olunan dəstgahın tərkibi bir çox hallarda ifaçının zövqündən və qabiliyyətindən asılı olur. Alim həmin əsərində Qarabağ musiqiçiləri tərəfindən ifa olunan 82 mahnı və muğamın adını çəkir. Mir Möhsün bir neçə muğamın mənşəyini və onların adının etimologiyasını araşdırır. Belə ki, Azərbaycan, Nişapur, Zabuli, Bağdadi, Şirvani, Qacarı, Şah Xətai və başqa muğamların adlarını onların yaranmasında rol oynamış şəxslərlə və yer adları ilə əlaqələndirir. Rast muğamını bahar mehi, Rəhavini yağış damlaları, Çahargahı ildırım çaxışı, Dügahı fontan vuran bulaqlarla, Humayunu quşların uçuşu, Nəvanı bədbəxt sevgililərin ah-naləsi, Mahuru suların şırıltısı, Şahnazı bülbüllərin cəh-cəhi, Üşşaqı quşların havada süzməsi, Üzzalı meteoritlərin hərəkəti ilə əlaqələndirir" [6, s.14].

XIX əsrdə Şuşa ən seçkin mədəniyyət mərkəzlərindən biri və özünəməxsus ənənələri olan şəhər idi. Burada bir çox alim və sənətkarların yaradıcılığı pərvəriş tapmışdır. Zəngin kitabxanaları ilə tanınan Şuşada qiymətli kitabların üzünü köçürən xəttatlar, onlara miniatürlər çəkən, binaları unikal naxışlarla bəzəyən rəssam və nəqqaşlar yaşayıb, fəaliyyət göstərmişdir ki, bunlardan biridə Mir Möhsün Nəvvab olmuşdur. Bilik və bacarıqlarının universallığı ilə fərqlənən doğma yurdu Şuşanın mədəni və ictimai həyatında fəal iştirakı, qabaqcıl mövqeyi ilə seçilən M.M.Nəvvab dövrünün ədəbiyyat, musiqi, rəssamlıq, nəqqaşlıq, xəttatlıq, astronomiya və s. kimi sahələrinə dəyərli töhfələrini vermiş böyük alimi, mütərəqqi ziyalısı olmuşdur. Təsadüfi deyil ki, Nəvvabın çoxşaxəli yaradıcılığından bəhs edən bütün mütəxəssislər yekdil olaraq onu "ensiklopedist-alim" adlandırmış, yeni düşüncə sisteminin formalaşmağa başladığı yüzilliyin ortalarında yiyələndiyi orta əsrlərə aid elmi biliklər sisteminin hərtərəfli və mükəmməl olduğunu vurğulamışlar. Onlarca şair, xanəndə, iyirmidən artıq musiqişünas, həmçinin xeyli rəssam, memar, xəttat və b. Mir Möhsün Nəvvabı özünə ustad hesab edirdi. Nəvvab irsinin unikallığı həm də ondadır ki, əksər sələfi və müasirləri kimi elm və biliklərə yiyələnmək məqsədilə səyahətlər etməmiş, dini və dünyəvi elmlərin hər birinə onların ustadı olacaq səviyyədə məhz doğma Şuşanın divarları arasında yiyələnmişdir. XIX əsrin sonlarından

etibarən Azərbaycanın bir sıra şəhərlərində musiqi məclisləri, dərnəkləri təşkil olunurdu ki, bunlara misal olaraq, Bakıda Məşədi Məlik Mənsurov, Şamaxıda Mahmud Ağa, Şuşada Xarrat Qulu Məhəmməd oğlunun, Mir Möhsün Nəvvabın təşkil etdiyi məclislər fəaliyyət göstərirdi. Şuşada ilk musiqi məclisini Azərbaycan muğam sənətinin inkişafında böyük rol oynamış Xarrat Qulu təşkil etmişdir. Dini məqsədlə yaradılmış bu məclisdə muğam sənəti öyrənilirdi. 80-ci illərdə M.M.Nəvvabın məşhur xanəndə Hacı Hüsü ilə birgə Şuşada yaratdığı "Musiqiçilər məclisi" yalnız Qarabağın deyil, bütün Azərbaycanın mədəni həyatında mühüm hadisə idi. Burada musiqinin estetik problemləri, ifaçılıq, muğam sənəti müzakirə olunurdu. Mir Möhsün Nəvvabın bu musiqi məclisi bir çox musiqiçilər üçün ilk təhsil rolunu oynamışdır. Qarabağın görkəmli xanəndələri şeir-sənət və musiqiyə aid məsləhət və təlim almaq üçün həmişə onun yanına gələrdilər. Nəvvabın evində musiqiyə aid keçən müsahibələrdə Seyid Şuşinski, İslam Abdullayev, Məşədi Cəmil və başqa xanəndələr iştirak edər, ondan öyrənərdilər. Ümumiyyətlə, Şuşa ziyalıları, o cümlədən hər iki ədəbi məclisin üzvləri mübahisəyə səbəb olan mühüm məsələlərdə, yuxarıda deyildiyi kimi, həmişə ona müraciət edərdilər.

"Mir Möhsün Nəvvabın yaradıcılığı yalnız ədəbiyyat deyil, həm də Azərbaycan musiqişünaslıq elminin formalaşmasında xüsusi mərhələ təşkil edir" [2, s.45].

Mir Möhsün Nəvvabın musiqi məclislərində müzakirəyə çıxardığı məsələlər sonradan onun musiqiyə həsr olunmuş əsərlərində, xüsusən "Vüzuh əl-ərqam" risaləsində geniş şəkildə əksini tapmışdır. Şəriət qaydalarının musiqi və bütövlükdə incəsənət növləri ilə bağlı yasaqlarının hələ də tüğyan etdiyi bir dövrdə musiqi ilə bağlı risalə yazmaq müəllifdən böyük cəsarət tələb edirdi. Təşkil etdiyi musiqi məclisləri, onların formatı Mir Möhsün Nəvvabın sənətə olan sevgisindən xəbər verir. Ədibin həyat tərzi haqqında onun şeirlərindən məlumat almaq mümkündür. M.M.Nəvvab dinə bağlı bir insan kimi din və sənətin bir-birinə mane olan yox, əksinə, insana mənəvi dəyər qatmaq baxımdan bir-birini tamamlayan anlayışlar olduğu fikrində idi. Mir Möhsün Nəvvabın fars və ərəb dillərində yazdığı əsərlər ən yaxşı klassik ənənələr ruhunda qələmə alınmışdır. XIX əsrin sonunda Azərbaycan musiqisi haqqında Azərbaycan dilində (ərəb əlifbası ilə) yazılmış yeganə risalə olan "Vüzuh əl-ərqam" 1884-cü ildə qələmə alınsa da, ilk dəfə 1913-cü ildə Bakıda Orucov qardaşlarının mətbəəsində çap olunmuşdur. Əsər 1989-cu ildə "Elm" nəşriyyatında kiril əlifbası ilə nəşr edilmiş, kitabı çapa hazırlayan Zemfira Səfərova ona ön söz, lüğət və şərhlər də yazmışdır.

Mir Möhsün Nəvvabın "Vüzuh əl-ərqam" əsərini yazmaqda məqsədi özünün də qeyd etdiyi kimi, müxtəlif elm sahələrində uğurlar qazanan digər millətlər kimi elmi biliklərə yiyələnməkdə, mədəniyyət sahəsində iz qoymaqda millətimizə yardım etməkdir. Ədib bu əsəri yazanda fikirləşirdi ki, millətinə kömək olacaqdır. Mir Möhsün Nəvvabın "Vüzuh əl-ərqam" risaləsi elmin öyrənilməsinə, yayılmasına xidmət edən bir vasitə idi. Mir Möhsün Nəvvabın "Vüzuh əl-ərqam" risaləsi "Musiqi haqqında sual-cavabın surəti" ilə başlayır: "Musiqi elmində məharəti olub, özü xanəndəlik etməyən, müğənniliyi və təğənnini (oxumağı) haram sayan bir şəxs elmi məqsədlə musiqidən istifadə etsə, onu yadda saxlasa, tədris etsə, çap etsə, yazsa, satsa, yazıb öz kitabxanasında saxlasa, caizdir, ya yox? Qüdrətli alimlər, mərifəti şüar etmiş şəriətmədar fəqihlər bu barədə nə buyurmuşlar?" Musiqi məclisləri təşkil edən, orada xeyli xanəndənin yetişməsinin səbəbkarı olan Mir Möhsün Nəvvabın "Vüzuh əl-ərqam" risaləsində dindarlar, şəriət qanunları ilə yaşayan radikal görüşlü insanlar tərəfindən qınanmaması üçün özünümüdafiə edirdi. Mir Möhsün Nəvvab "Vüzuh əl-ərqam" əsərində həmin dövrdə musiqiyə, bütövlükdə sənətə islamın münasibəti geniş mənada insanların musiqiyə münasibətini şərtləndirirdi. Belə ki, əhali dindar kəsimdən ibarət idi və şəriət qayda-qanunları onlar üçün olduqca vacib idi. Ədib yaradıcılığında musiqi elminin islam kontekstində şərhini vermişdir. Mir Möhsün Nəvvab "Vüzuh əl-ərqam" əsərində musiqi ilə bağlı şərhləri, təfsirləri, həmçinin ədəbiyyat və digər sənət sahələri, başqa sözlə, vahid mədəni sistem çərçivəsində həllini tapmışdır.

Mir Möhsün Nəvvab "Vüzuh əl-ərqam" risaləsində nəğmənin həqiqi və ruhani olduğunu yazaraq qeyd edir ki, odun cövhəri çaxmaq daşında gizli olduğu, onları bir-birinə vuranda od əmələ gəldiyi kimi, musiqi də mülayim (yəqin ki, həssas mənasında) qəlblərdə əks-səda verir. Mir Möhsün Nəvvab musiqi elmi haqqında kitab yazması ilə dindən uzaqlaşdığını inkar edirdi. Ədib musiqinin dinin ən əhəmiyyətli fiqur olduğunu vurğulayırdı. Mir Möhsün Nəvvab "Vüzuh əl-ərqam" əsərini

müsəlman Şərqinin Fərabi, İbn Sina, Səfiəddin Urməvi, Əbdülqədir Marağayi kimi görkəmli filosof və musiqişünaslarının, həmçinin antik dövrün (Platon, Aristotel) araşdırmalarına əsaslanaraq yazmışdır. O, musiqinin mahiyyətini, estetikasını, dinləyiciyə emosional, müalicəvi-psixoloji təsirini çox geniş bir şəkildə şərh etmişdir. Mir Möhsün Nəvvab "Vüzuh əl-ərqam" risaləsində musiqinin riyaziyyat ilə sıx əlaqədə inkişaf etdiyini bildirmişdir. Mir Möhsün Nəvvab "Vüzuh əl-ərqam" risaləsində ayrı-ayrı muğamların, bəzi dəsgahların və onların adlarının mənşəyi haqqında məsələləri araşdırır, muğamların şeir mətnləri ilə əlaqəsi, ifaçı və dinləyicinin qarşılıqlı münasibətləri, akustika baxımından optimal yerləşməsi problemlərinə toxunur. Ədib risalədə həmçinin müxtəlif musiqi alətlərinin yaranması, adlarının əmələ gəlməsi ilə bağlı rəvayətləri qeyd edir. Orta əsr muğam nəzəriyyəsi ənənələrinin yer aldığı "Vüzuh əl-ərqam" risaləsində ədib interval, ritm, tetraxord kimi məsələlər üzərində yenidən dayanmağa gərək duymamış, əsasən, praktik əhəmiyyətə malik məsələlərə vurğu etmişdir.

Mir Möhsün Nəvvabın "Vüzuh əl-ərqam" risaləsi yalnız Azərbaycanda deyil, bütün Şərq ölkələrində muğam ifaçılığının və incəsənətin vacib məsələlərindən bəhs edən qiymətli bir musiqi əsəri hesab edilirdi. Risalə öz dövründə Azərbaycan musiqisi barədə Azərbaycan dilində yazılıb nəşr olunmuş yeganə risalə idi və Şərqdə, xüsusən musiqi haqqında risalələrin az olduğu bir dövrdə Şuşada belə bir əsərin ərsəyə gəlməsi əlamətdar hal idi. Ədib elmin müxtəlif sahələrinə aid Azərbaycan, fars və ərəb dillərində iyirmidən artıq əsər yazmışdır. Mir Möhsün Nəvvabın musiqi elminə həsr olunmuş əsəri Azərbaycan və rus dillərində çap olunub. Bu əsərdə musiqinin əlifbası öyrədilir, sədalar izah olunur: musiqi səslərinin yüksəlib-enməsi, enib-yüksəlməsinin müxtəlif növləri ərəb hərfləri vasitəsilə işarə edilir. Mir Möhsün Nəvvab Qərb musiqi nəzəri bilgilərində olduğu kimi, özündən öncəki Şərq musiqi risalələrindən də xəbərdardır və tərtib etdiyi kitablar sələflərindən bəhrələnməklə yanaşı, özünün əlavə və dəyişiklikləri ilə ərsəyə gəlmişdir. Mir Möhsün Nəvvab "Vüzuh əl-ərqam" risaləsi ilə Azərbaycan musiqi tarixində not sisteminin tətbiq edilməsi sahəsində ilk hesab ediləcək qədər qəti addımı atmışdır. Ədibin əsəri Azərbaycanda musiqi sahəsində gözlə görülə bilər dərəcədə təsəvvür yaratması baxımından və bütövlükdə müəllifinin maarifyönlü fəaliyyətinin əhəmiyyətli hesab edilməsi yönümündə olduqca qiymətlidir. Mir Möhsün Nəvvabın "Vüzuh əl-ərqam" risaləsi Avropa musiqi nəzəriyyəsinin Azərbaycan musiqisinə inteqrasiyası baxımından çox böyük əhəmiyyətə malikdir. Ədib "Vüzuh əl-ərqam" risaləsində musiqi elminə çox geniş, ətraflı yer vermişdir. Onun musiqiyə həsr olunmuş əsərində xüsusi bədiilik nəzərə çarpmır və aydın görünür ki, müəllifin məqsədi muğam haqqında nəzəri bilgiləri oxucuya çatdırmaqdır. Şuşanın mədəni və ictimai həyatında fəal iştirak etməklə Mir Möhsün Nəvvab bütövlükdə Azərbaycan mədəniyyətinin inkişafına böyük töhfələr bəxş etmişdir. Mir Möhsün Nəvvabın musiqimizin inkişaf tarixində əhəmiyyətli rolu danılmazdır.

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Mir Möhsün Nəvvabın "Risaleyi vuzuh əl-ərqam" adlı əsəri B-237 şifrəsi altında mühafizə olunur. Avtoqraf olan əlyazma qara mürəkkəblə şikəstə-nəstəliq xətti ilə Rusiya istehsalı olan noxudu rəngli kağızda fars dilində yazılmışdır. Nüsxədə başlıqlar qırmızı mürəkkəblə verilib. Həcmi 19 vərəq olan mətn qırmızı mürəkkəblə çərçivəyə alınmışdır. 1b vərəqində sərlövhə qızılı rənglə təzhiblənərək tərtib edilmişdir. Əsərdə musiqinin yaranma tarixi ilə yanaşı, muğamatın güşə və şöbələri cədvəllərdə (6b-7a) izah edilmişdir. Əlyazma Şərq üsulu ilə və sadə qələmlə müasir üsulla ardıcıl olaraq səhifələnmişdir. Abidə Mir Möhsün Nəvvabın klassik Azərbaycan muğamatına dair yazdığı "Vüzuh əl-ərqam" adlı risaləsinin yeganə nüsxəsidir. Titul vərəqinin arxasında Mir Möhsün Nəvvabın dövrünün müctəhidi Fazil İravaniyə yazdığı məktubun məzmunu verilmişdir. Cildi bənövşəyi rəngli kartondur [5].

**Nəticə**

*Mir Möhsün Nəvvabın Şuşanın mədəni və ictimai həyatının inkişaf etdirilməsindəki rolu olduqca böyükdür. Ensiklopedik bilik və bir çox sahələrdə nadir istedada sahib olan ədib Azərbaycan elminin, ədəbiyyatının, musiqisinin inkişafı yolunda çoxşaxəli fəaliyyəti, elmi fikirləri və araşdırmaları ilə böyük xidmətlər göstərmişdir. O, Azərbaycanın musiqi elmini yaradıcılığı ilə*

*zənginləşdirməyə nail olmuşdur. Ədib ədəbi-bədii və elmi irsi, ictimai fəaliyyəti ilə Şuşa şəhərinin mədəni həyatında böyük rol oynamışdır. Alim xalqımızın maariflənməsində, Azərbaycan ədəbiyyatının, incəsənətinin inkişafında mühüm xidmətlər göstərmişdir. Bu xidmətlərə Şuşada kitabxana, qiraətxana, "üsuli-cədid" məktəblərini açması daxildir. Azərbaycanda musiqi sənətinin inkişafında M.M.Nəvvabın rolu xüsusilə böyük idi. Bildirdiyimiz kimi, onun parlaq istedadı sayəsində Azərbaycanın musiqi sənətinin, musiqi elminin, musiqi təhsilinin inkişafında xüsusi böyük irəliləyişlər əldə olundu. Görkəmli şəxsiyyət "Məclisi-fəramuşan" adlı ədəbi və "Məclisi-xanəndə" adlı musiqi məclislərinin qurucusu kimi adını Azərbaycan tarixinə əbədi yazdırmışdır və Azərbaycan mədəniyyətinin inkişafına mühüm töhfələr verməyə nail olmuşdur.*


هو المستعان
کتاب وضوح الارقام در علم موسیقی
من موضوعات نواب میر محسن ابن حاجی سید احمد
آقای آقا میرزاده قراباغی در سنه ۱۳۰۱ وضع شد
بسم الله الرحمن الرحیم
الحمد لله رب العالمین والصلواة والسلام علی محمد وآله
واصحابه اما بعد چنین گوید عبد العاجز الفانی
نواب میر محسن آقا میرزاده قراباغی که برادران دینی و
اخلاء روحانی که بحسن ظن بدین فقرات بنگرند گمان
نبرند که غرض ما از بیان این کلمات آن بوده است که
استعمال آن را جایز دانسته و حرمت آن را حلال
انگاشته ایم نه بلکه نیة المرء خیر من عمله جمیع اعمال
وابسته نیت مرد است ای بسا عباداتیکه به نیت فاسده
نفسانی که معمول دارند ثمره آن بعامل آن غیر از عصیان



بیان اصطلاحات موسیقی و شعبها و گوشها و اوج حضیض آن

| | مقامات | اوج حضیض | شعبها | اوج حضیض | شعبها | اوج حضیض | گوشها | اوج حضیض |
|---|---|---|---|---|---|---|---|---|
| ۱ | راست | ج | مبرقع | ج | پنجگاه | ض | ستانه | ج |
| ۲ | عشاق | ض | نایل | ض ج | نغمه | ض | سپهر | |
| ۳ | بوسلیک | ج | صبا | | عشیران | | زمزم | |
| ۴ | حسینی | ض | متحیّر | | دوگاه | | حیرت | |
| ۵ | اصفهانک | | نشابور | | نیریز | | نهاوند | |
| ۶ | زنگوله | | عزّال | | چهارگاه | | چکاوک | |
| ۷ | رهاوی | ض | عجم | | عرب | | خجسته | |
| ۸ | بزرگ | | نهفت | | همایون | | فرح | |
| ۹ | عراق | ج | مغلوب | | مخالف | | نورس | |
| ۱۰ | کوچک | | بیات | | رکب | | سرور | |
| ۱۱ | نوا | ض | ماهور | | خارا | | کبیر | |
| ۱۲ | حجاز | ج | حصار | | سه‌گاه | | فتح | |



14

و تعویق مرام می گردد ولیکن لازم است که برای استعلام و استفهام
فقرات چند نگاشته آید ان شاء الله

دستگاه راست

راست ، پنجگاه ، ولایتی ، منصوریه ، آذربایجان ، عراق
بیات ترک ، بیات قاجار ، ماوراء النهر ، بال کبوتر ، حجاز ،
عشیران ، زنگ شتری ، کرکوکی

دستگاه ماهور

ماهور ، کابل ، دلکش ، دوگاه ، شور ، سماع ، خاران ، شهناز
حاجی یونی ، سارنگ ، شوشتر ، مثنوی ، سوزگداز ، عراق ،
بیات قاجار

دستگاه شهناز

درآمد ، شهناز ، عشاق ، دشتی ، سلمک ، مویه ، لیلی مجنون
ابو الچپ ، شاه ختایی ، آذربایجان ، عراق ، آذربایجان حجاز

دستگاه رهاوی

رکب ، همایون ، ترکیب ، عزال ، بیات ترک ، بیات قاجار
ماوراء النهر ، بال کبوتر ، حجاز ، بغدادی ، شهناز ، آذربایجان
عراق ، عشیران ، زنگ شتری ، عثمانی ، بیات کرد ، بیات شیراز

**Ədəbiyyat siyahısı:**

1. Axundova, M. (2022, 12 fevral). Mir Möhsün Nəvvabı xatırlarkən. 525-ci qəzet, 19.
2. Əliyeva, İ. (2021, 22 dekabr). Böyük söz sərrafı Mir Möhsün Nəvvab: Şəxsiyyətlər. Azərbaycan, 65.
3. Kərimov, R. (2022, 3 noyabr). “XIX əsr Qarabağ şairlərinin şeir antologiyası”ndan. 525-ci qəzet, 15.
4. Mir Möhsün Nəvvab. (1913). Təzkireyi Nəvvab. - Bakı: AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu; (Şifr: M-67).
5. Mir Möhsün Nəvvab. “Risaleyi vuzuh əl-ərqam”. B-237, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu
6. Mirzəliyev, M. (2021, 9-10 mart). Şuşada doğuldu və ömrü boyu bu şəhəri tərk etmədi: Mir Möhsün Nəvvabın həyat və yaradıcılığı. Hürriyyət, 14.
7. Vahid, M. (2022, 23 iyul). Mir Möhsün Nəvvabın Azərbaycan musiqişünaslığında rolu. Ədəbiyyat qəzeti, 18-19.

**Vafa Sharifova**

**AN OVERVIEW OF THE WORKS OF MIR MOHSUN NAVVAB**

*Summary*

Researchers who studied Mir Mohsen Navvab's mughams and the history of their creation have revealed that the writer likened each mugham to natural phenomena and human emotions according to its character. The musicologist likened the mugham "Rast" to a spring breeze, and the mugham "Chahargah" to a lightning bolt. As a result of the writer's ability to hear and understand music very well, his work on music - "Vuzuhul-argan" was written. The poet's poems written in the field of culture and progress of the Azerbaijani people are very valuable and valuable. His great love of nature, beautiful landscapes, roses, and nightingales played a very important role in the musicologist's deep knowledge of music. The writer's treatise "Vuzuhul-argan" which comments on the history and theory of Azerbaijani music contains very valuable ideas about the structure and departments of the mugham dastgah. The famous Azerbaijani musicologist Mir Mohsen Navvab made great contributions to the enrichment of the literary and cultural environment of Shusha as a musician, poet, painter, calligrapher, astrologer, chemist, and mathematician.

***Keywords:*** *Azerbaijan, Mir Mohsen Navvab, literature, culture, music, Karabakh, Shusha*

*Filologiya üzrə fəlsəfə doktoru* ***Tünzalə Seyfullayeva***
*tərəfindən çapa tövsiyə olunmuşdur.*